QANUN № 05 (367), 2025, s. 70-79



**Əlimusayev Emin Nazim oğlu,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının doktorantı
E-mail: eminalimusayev@gmail.com
ORCID ID: 0009-0001-2300-0690

**UOT 349.6**
**DOI: https://doi.org/10.30546/2218-9130.004.2025.032**

# İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ EKOLOJİ QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ: ƏSAS TENDENSİYALARIN MÜƏYYƏN EDİLMƏSİ

***Açar sözlər***: *ekologiya, yaşıl dünya, ekoloji qanunvericilik, iqlim haqqında qanunlar, qanunvericilik, normayaratma.*

***Ключевые слова***: *экология, зеленый мир, экологическое законодательство, законы о климате, законодательство, законотворчество.*

***Keywords***: *environment, green world, environmental legislative framework, climate laws, legislation, lawmaking.*

## Giriş

Bəşəriyyətin iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq insanların təbiətə təsiri getdikcə artmaqdadır. İqtisadi fəaliyyətin artması ilə təbii ehtiyatlardan daha çox istifadə edilməsi və təbiətə daha çox zərərli maddələrin emissiya edilməsi ekoloji tarazlığı pozmaqla insan nəslinin gələcəyini təhlükə altına atır. Bu səbəbdən dünyanın qabaqcıl dövlətləri dayanıqlı ekoloji siyasətə keçid etmiş və daxili qanunvericiliklərini bu istiqamətdə formalaşdırmışlar. Bununla yanaşı, qabaqcıl dövlətlərin təcrübəsinə nəzər yetirdikdə ekoloji tənzimləmənin getdikcə sərtləşdirildiyini müşahidə etmək olar. Xüsusilə ekoloji problemlərin kəskinləşməsi, bu sahədə elmi araşdırmaların nəticələri, media və cəmiyyətin ekoloji savadlılığının artması və beynəlxalq öhdəliklər kimi amillər ekologiya sahəsində hüquqi çərçivənin davamlı təkmilləşdirilməsini şərtləndirir.

Ekoloji problemlərin kəskinləşməsi iqlim dəyişmələri, ətraf mühitin çirklənməsi, təbii ehtiyatların tükənməsi, biomüxtəlifliyin azalması və ekoloji tarazlığın pozulması kimi sahələrdə özünü büruzə verir. Araşdırmalar göstərir ki, insan fəaliyyəti nəticəsində 1850-1900-cü illərə münasibətdə 2011-2020-ci illər ərzində planet səthinin orta temperaturu 1.1 °C yüksəlmişdir [1, s. 4]. Bununla yanaşı, BMT-nin Ətraf mühit proqramının hesabatında çirklənmələrin illik 9 milyondan çox insanın ölümünə səbəb olması və çirklənmələrin səbəb olduğu ölümlərin son 20 il ərzində 66% artdığı, habelə dünya əhalisinin 99 faizinin ÜST-nin 2021-ci il tarixli hava

keyfiyyətinə dair təlimatında müəyyən edilən kriteriyalara cavab verməyən hava çirkliliyinə məruz qaldığı qeyd edilir [2, s. 1]. Eyni zamanda aparılmış tədqiqatlar göstərir ki, müxtəlif canlı növlərinin nəsli tükənməsi riskini ölçən Qırmızı Siyahı İndeksi *("The Red List Index")* 2023-cü il üzrə 1993-cü ilə nisbətən 11 faiz pisləşmişdir [3, s. 43]. Qeyd olunan hallar ekosistemlərin pisləşməsinə səbəb olmaqla ekoloji tarazlığın pozulmasına gətirib çıxarır. Göründüyü kimi, ekoloji vəziyyətin pisləşməsi yalnız insanlara iqtisadi zərər vurmaqla məhdudlaşmır, eyni zamanda insan həyat və sağlamlığı üçün də təhlükə yaradır. Bütün bunlar bəşəriyyətin sağlam gələcəyi üçün mövcud ekoloji problemlərin kəskinlik səviyyəsinə mütənasib olaraq hüquqi çərçivənin də təkmilləşdirilməsini zəruri edir.

Elmi araşdırmaların nəticələri də ekologiya sahəsində mövcud problemlərin yaxın gələcəkdə daha da pisləşəcəyini proqnozlaşdırır. Aparılmış tədqiqatlar müxtəlif ssenarilər üzrə hava temperaturunun yaxın gələcəkdə də artacağını göstərir [4, s. 14]. Bununla yanaşı müxtəlif ssenarilər üzrə aparılmış araşdırmalara əsasən, dünya üzrə 2100-cü ilədək dəniz səviyyəsinin artması səbəbindən baş verən sahil daşqınlarına görə itkilərin qlobal ümumdaxili məhsulun 4%-nə bərabər olması [5, s. 16], 2050-ci ilədək isə yanğınlara görə zərər çəkmiş ərazilərin 2000-ci illə müqayisədə 19% artması proqnozlaşdırılır [6]. Göründüyü kimi, ekoloji elmi araşdırmalara əsasən insan fəaliyyətinin təbiətə təsirinin gələcəkdə ekoloji problemlərin daha da kəskinləşməsinə səbəb olması kimi amillər dövlətlərin müəyyən adaptasiya siyasətləri qəbul etməsini, həmçinin qanunvericiliklərinə bu istiqamətdə müddəaların əlavə edilməsini zəruri etmişdir.

Ekoloji münasibətlər sahəsində son bir neçə onillik üçün xarakterik olan amillərdən biri də cəmiyyətin ekoloji savadlılığının artmasıdır. Belə ki, ekoloji problemlərin kəskinləşməsi və ekologiya sahəsində elmi yeniliklər insanların ekoloji problemlərə daha həssas yanaşmasına gətirib çıxarmışdır. Eyni zamanda bu, özəl şirkətlərin və media subyektlərinin də ekoloji məsuliyyətinin artmasına səbəb olmuşdur. Hətta bir sıra araşdırmalar göstərir ki, dövlətlərin sərt ekoloji tənzimləmələri kütləvi informasiya vasitələrinin ekoloji məsələləri daha çox ictimailəşdirməklə özəl şirkətləri yaşıl innovasiyalar etməyə stimullaşdırır [7, s. 11]. Bununla yanaşı, bu sahədə ekoloji savadlılığın artması, yaşıl cərəyanların formalaşması, medianın ekoloji problemləri daha çox işıqlandırması kimi amillər qanunvericilik prosesinə təsir etməklə hüquqi çərçivənin davamlı təkmilləşdirilməsinə təsir göstərir.

Beynəlxalq ekoloji öhdəliklər də dövlətlərin daxili qanunvericiliklərini beynəlxalq konvensiyaların və digər razılaşmaların tələblərinə uyğunlaşdırması baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (bundan sonra – Çərçivə Konvensiyası), habelə Çərçivə Konvensiyasının Kyoto Protokolu və Paris Sazişi kimi beynəlxalq sənədlər dövlətləri öz ekoloji qanunvericiliklərini razılaşma istiqamətində təkmilləşdirməyə stimullaşdırmaqla bu sahədə xüsusi rol oynayır. Eyni zamanda bu sahədə beynəlxalq təşkilatların rolu xüsusilə qeyd edilməlidir. Beləliklə, beynəlxalq öhdəliklər də dövlətlərin ekoloji qanunvericiliklərinin təkmiləşdirilməsinin əsas hərəkətverici amillərindən biridir.

Yuxarıda qeyd olunan amillər dövlətlərin ekoloji qanunvericiliklərinin davamlı təkmilləşdirilməsinin əsas hərəkətverici qüvvəsi qismində çıxış edir. Bu səbəbdən dünyanın qabaqcıl dövlətlərinin ekoloji qanunvericilikləri üçün davamlı təkmilləşdirmələrin və qanunvericilik islahatlarının aparılması xarakterikdir.

**Xarici dövlətlərin qanunvericiliklərinin təhlili.**

**Avropa İttifaqı.** Dünyanın ən böyük siyasi və iqtisadi birliyi kimi Avropa İttifaqı (bundan

sonra – Aİ) hüquqi çərçivə baxımından da xüsusi əhəmiyyətə malikdir. Belə ki, bir çox hallarda Aİ-nin reqlament və direktivləri müvafiq sahədə beynəlxalq standartların müəyyən edilməsində, habelə ayrı-ayrı dövlətlərin qanunvericiliklərinin formalaşmasında xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Aİ-nin ekoloji hüquqi çərçivəsinin və əsas ekoloji tənzimləmə tendensiyalarının müəyyən edilməsi zəruridir.

Aİ-də ekoloji hüquqi tənzimləmə çərçivəsində "Avropa İttifaqının fəaliyyəti haqqında" Müqavilənin 191-ci maddəsi ətraf mühitin mühafizəsi sahəsində əsas məqsəd və əsasların müəyyən edilməsi baxımından ilkin xarakter daşıyır. Bununla yanaşı, Aİ-nin bir sıra reqlament və direktivləri də bu sahədə xüsusilə əhəmiyyətlidir. Məsələn, biomüxtəlifliyin qorunması sahəsində "Quşlar" Direktivi *("The Birds Directive")* və "Yaşayış Yerləri" Direktivi *("The Habitats Directive"),* tullantılar sahəsində "Tullantılar Çərçivəsi" Direktivi *("Waste Framework Directive"),* su obyektləri ilə bağlı "Su Çərçivəsi" Direktivi *("Water Framework Directive")*, atmosfer havasının keyfiyyəti ilə bağlı "Hava Keyfiyyəti" Direktivi *("Air Quality Directive")* və başqalarını misal göstərmək olar. Sözügedən aktlar müxtəlif ekoloji problemlərlə bağlı münasibətləri tənzimləyir.

Sözügedən direktivlərlə yanaşı, 2019-cu ildə müzakirəyə təqdim edilmiş, 2021-ci ildən qüvvəyə minmiş və Aİ-nin iqlim hədəflərini hüquqi qüvvəyə malik olan normalara çevirən "Avropa İqlim Qanunu" Reqlamenti *("European Climate Law")* xüsusilə qeyd edilməlidir. Belə ki, Reqlament 2050-ci ilədək Aİ-nin iqlim neytrallığına malik olmasını, 2030-cu ilədək isə 1990-cı ilə nisbətən istixana qazları emissiyasının 55% azaldılmasını hədəfləyir. Reqlament davamlı hesabat vermə sistemi təsbit etməklə üzv dövlətlərin iqlim hədəflərinə əməl etməsini təmin edir. Bir sıra araşdırmalar sözügedən reqlamentin Aİ-də sözügedən sahədə hüquqi bazanı gücləndirdiyini göstərsə də, əlavə təkmilləşdirmə imkanlarının qaldığı etiraf edilir [8, s. 41-42]. Bununla yanaşı, Reqlament zəruri hüquqi çərçivəni təmin etməklə Aİ-nin gələcək ekoloji strategiya və planlarının reallaşdırılması üçün kritik əhəmiyyət daşıyır.

Sözügedən strategiya və planların içərisində "Avropa Yaşıl Razılaşması" *("The European Green Deal")* dayanıqlı iqtisadi inkişafı stimullaşdırılması və istixana qazlarının emissiyalarının azaldılması yolu ilə 2050-ci ilədək iqlimə təsir etməyən iqtisadiyyata keçid etmək baxımından xüsusi əhəmiyyət daşıyır. Həmin Razılaşma çərçivəsində xüsusilə Aİ-də biomüxtəlifliyin qorunmasını hədəfləyən "2030-cu il üçün Biomüxtəliflik Strategiyası" *("Biodiversity Strategy for 2030")*, çirklənmələrin azalmasını hədəfləyən "Sıfır Çirklənmə üçün İş Planı" *("The Zero Pollution Action Plan"),* iqlimə təsir etməyən iqtisadiyyata ədalətli və inklüziv keçidi təmin edən "Ədalətli Keçid Mexanizmi" *("Just Transition Mechanism")*, qida sistemlərini daha sağlam və ekoloji təmiz etməyi hədəfləyən "Fermadan Çəngələ Strategiyası" *("Farm to Fork Strategy"),* karbon emissiyalarının azaldılması məqsədilə daha da genişləndirilmiş və sərtləşdirilmiş "Emissiya Ticarəti Sistemləri" *("Emission Trading Systems")* xarakterikdir. Qeyd olunanlarla yanaşı Aİ çərçivəsində dövri iqtisadiyyata keçidin təmin edilməsi məqsədi güdən "Dövri İqtisadiyyat İş Planı" *("Circular Economy Action Plan"),* iqlim dəyişikliklərinin təsirlərinə qarşı "Aİ İqlim Adaptasiyası Strategiyası" ("EU Climate Adaptation Strategy") əhəmiyyətlidir.

Yuxarıda qeyd olunan hədəflərə nail olunmasının təmin edilməsində Aİ-nin "55 üçün Uyğunluq" *("Fit for 55 Package")* qanunvericilik paketi mühüm rol oynayır. Adından da göründüyü kimi, qanunvericilik paketinin əsas məqsədi yuxarıda qeyd edilən 2030-cu ilədək istixana qazları emissiyasının 55% azaldılmasını təmin etmək

üçün hüquqi çərçivənin təkmilləşdirilməsidir. Paket çərçivəsində bir sıra mövcud reqlament və direktivlərə dəyişikliklər təqdim edilmişdir. Məsələn, "Emissiya Ticarəti Sistemləri" Direktivinə *("Emissions Trading System Directive")* edilmiş dəyişikliklər nəticəsində emissiyaların yol verilən həddi azaldılmış və qaydalar daha da sərtləşdirilmiş, həmin Direktivlə əhatə edilməyən sahələrdə istixana qazlarının emissiyalarının azaldılmasını tənzimləyən "Səylərin Paylaşılması" Reqlamentinə *("Effort Sharing Regulation")* edilmiş dəyişikliklərlə daha sərt müddəalar müəyyən edilmiş, "Bərpa Olunan Enerji" Direktivinə *("Renewable Energy Directive")* edilmiş dəyişikliklərlə Aİ-nin enerji istehlakında bərpa olunan enerji mənbələrindən istifadənin artırılması hədəfləri yüksəldilmiş, "Enerji Effektivliyi" Direktivinə *("Energy Efficiency Directive")* edilmiş dəyişikliklərlə enerji istehlakı sahəsində effektivliyin artırılması və enerjidən qənaətlə istifadə edilməsi sahəsində tələblər daha da sərtləşdirilmişdir [9, s. 2-12].

Göründüyü kimi, Aİ-də son illərdə ekoloji tənzimləmə sahəsində çoxsaylı strategiya və planların qəbul edilməsi, eləcə də ekoloji, xüsusilə də iqlim hədəflərin hüquqi əsasının təmin edilməsi məqsədilə icrası məcburi olan reqlamentlərdə ifadə edilməsi ilə xarakterikdir. Bununla yanaşı, ekologiya sahəsində mövcud reqlament və direktivlərə edilmiş dəyişikliklərlə mövcud tələblər daha da sərtləşdirilmişdir.

Aİ hüququ ilə yanaşı üzv dövlətlərin qanunvericiliklərinin araşdırılması da bu sahədə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Aİ-nin bir çox qanunvericilik aktları, məsələn, direktivlər yekun hədəfləri müəyyən etsələr də, həmin hədəflərə nail olmağın təmin edilməsi üzv dövlətlərin daxili qanunvericilikləri ilə təmin edilir. Bu səbəbdən Aİ-yə üzv dövlətlərin daxili qanunvericiliklərinin də təhlil edilməsi xüsusi əhəmiyyət daşıyır.

**Fransa Respublikası.** Aİ-nin ən böyük dövlətlərindən biri kimi Fransa yüksək iqtisadi inkişaf səviyyəsinə və zəngin qanunvericilik tarixinə malikdir. Bununla yanaşı, dünyada, xüsusilə frankofon məkanında təsir imkanları Fransanın ekoloji qanunvericiliyinin təhlil edilməsini xüsusi əhəmiyyətini göstərir.

Fransanın ekoloji qanunvericiliyində 2004-cü ildə Konstitusiyaya edilmiş əlavə xüsusi yer tutur. Belə ki, həmin əlavədə hər kəsin sağlamlığı üçün balanslı ətraf mühitdə yaşamaq hüququ müəyyən edilmiş, eləcə də "çirkləndirən ödəyir" kimi bir sıra prinsiplər təsbit olunmuşdur. Bununla yanaşı, sözügedən sahədə kodifikasiya edilmiş hüquqi sənəd olan Fransanın "Ətraf mühit haqqında" Məcəlləsi (*"Code de l'environnement"*) də qeyd edilməlidir. Həmin Məcəllə biomüxtəlifliyin qorunması, su resurslarının idarə edilməsi, atmosfer havası, tullantıların idarə edilməsi, nüvə radiasiyası, iqlim kimi ekologiya hüququnun müxtəlif institutlarını əhatə edən normaları ehtiva edir.

Bununla yanaşı, Fransada ekologiya hüququ sahəsində baş tutmuş qanunvericilik islahatları da xüsusi əhəmiyyət daşıyır. Bu islahatların içərisində "Grenelle Qanunları" (*"Loi Grenelle"*) mühüm rol oynayır. Belə ki, 2007-ci ildə Fransada başlanılmış müzakirələrin nəticəsi olaraq 2009-cu ildə "Grenelle I", 2010-cu ildə isə "Grenelle II" qanunvericilik aktları qəbul edilmişdir. "Grenelle I" qanunvericilik aktının əhatə dairəsi iqlim dəyişiklikləri ilə mübarizə, bərpa olunan enerji mənbələrindən istifadə, yaşıl satınalmalar kimi sahələri, "Grenelle II" aktı isə bütün bunların icra mexanizmlərinə fokuslanmışdır.

Bu sahədə Fransada keçirilmiş demokratik cərəyanlar da xüsusilə əhəmiyyətlidir. Məsələn, 2019-cu ildə "Vətəndaşların İqlim Konvensiyası" təşəbbüsü (*"Convention Citoyenne pour le Climat"*) baş tutmuşdur. Təşəbbüs çərçivəsində Fransada təsadüfi əsaslarla seçilmiş 150 nəfər seçilmiş və onlardan istixana qazlarının emissiyasının azaldılması üçün təkliflərin hazırlan-

ması xahiş edilmişdir. Təşəbbüsün məqsədi iqlim dəyişikliklərinə qarşı mübarizə tədbirlərinin sosial ədalətə əsaslanması olmuşdur. Təşəbbüs çərçivəsində məişət, nəqliyyat və digər sahələrdə bir sıra təkliflər irəli sürülmüşdür ki, həmin təkliflərin bir hissəsi növbəti qanunvericilik aktlarında öz əksini tapmışdır.

Son dövrlərdə Fransanın ekoloji qanunvericiliyində bir sıra yeni qanunvericilik aktları qəbul edilmiş və ekoloji tənzimləmə daha da sərtləşdirilmişdir. Belə ki, Fransada 2019-cu ildə "Enerji və iqlim haqqında" Qanun (*"LOI n° 2019-1147 du 8 novembre 2019 relative à l'énergie et au climat"*) qəbul edilmişdir. Həmin Qanunla Fransanın 2050-ci ilədək iqlim neytrallığı hədəfləri müəyyən edilmişdir. Bu sahədə qəbul edilmiş növbəti qanunvericilik aktı 2021-ci il tarixli "İqlim dəyişiklikləri ilə mübarizə və onun təsirlərinə qarşı davamlılığın gücləndirilməsi haqqında" Qanun (*"LOI n° 2021-1104 du 22 août 2021 portant lutte contre le dérèglement climatique et renforcement de la résilience face à ses effets"*) olmuşdur. Bu qanun yuxarıda qeyd edilən "Vətəndaşların İqlim Konvensiyası" təşəbbüsünə əsaslanır və iqlim dəyişiklikləri ilə mübarizə sahəsində müxtəlif sektorlar üzrə bir sıra tədbirləri ehtiva edir. Məsələn, iqlim dəyişikliklərinə səbəb olan məhsulların reklamının qadağan edilməsi, enerji səmərəsiz yaşayış obyektlərinin kirayəsi və s. kimi sahələrə tənzimləmə gətirilmişdir. Lakin bununla belə, bəzi tədqiqatçılar qanunun Fransanın iqlim hədəflərinə çatması üçün yetərsiz olduğunu iddia edirlər [11, s. 11-12]. Əlavə olaraq, 2023-cü ildə "Bərpa olunan enerjinin istehsalının stimullaşdırılması haqqında" Qanun (*"LOI n° 2023-175 du 10 mars 2023 relative à l'accélération de la production d'énergies renouvelables"*) qəbul olunmuşdur. Bu qanunun əsas məqsədi Fransada bərpa olunan enerji istehsalının genişləndirilməsi və təşviqi olmuşdur. Bununla yanaşı, Fransada 2024-cü il 5 aprel tarixli Fərmanla (*"Décret n° 2024-316 du 5 avril 2024 relatif à l'indice de durabilité des équipements électriques et électroniques"*) elektron cihazlar üçün "EEE dayanıqlılıq indeksinin" tətbiqinə başlanılmışdır.

Əlavə olaraq, Fransada tullantılar sahəsində də qanunvericilikdə bir sıra təkmilləşdirilmələr aparılmışdır. Məsələn, 2020-ci ildə Fransada "Tullantılar əleyhinə və dövri iqtisadiyyat haqqında" Qanun (*"LOI n° 2020-105 du 10 février 2020 relative à la lutte contre le gaspillage et à l'économie circulaire"*) qəbul edilmişdir. Həmin qanunun əsas məqsədi tullantıların azaldılması, yenidən emalın stimullaşdırılması, dayanıqlılığın və şəffaflığın təşviq edilməsindən ibarətdir. Xüsusilə tək istifadəlik plastiklərin məhdudlaşdırılması və qadağan edilməsi, istehlakçıların məhsulların yenidən emal imkanları ilə bağlı məlumatlandırılması tələbi kimi müddəalar qanunda ehtiva edilmişdir.

Göründüyü kimi, Aİ-nin üzvü kimi Fransada son illərdə ekoloji qanunvericiyə edilmiş əlavə və dəyişikliklər əsasən *iqlim* hədəflərinin müəyyən edilməsi və bu məqsədlə müvafiq tənzimləmənin həyata keçirilməsinə fokuslanmışdır. Bununla yanaşı, Fransada ekoloji tənzimləmənin daha da sərtləşdirilməsi, eləcə də bu sahədə *demokratik təşəbbüslərin* həyata keçirilməsi də xarakterik amillərdən biridir.

**Almaniya Federativ Respublikası.** Aİ-nin ən inkişaf etmiş ölkələrindən biri kimi Almaniyanın ekoloji qanunvericilik aktları bir çox hallarda digər dövlətlər üçün nümunəvi xarakter daşıyır. Bu səbəbdən Almaniya qanunvericiliyinin təhlili araşdırma baxımından xüsusi əhəmiyyət kəsb edir.

Almaniyada ətraf mühitin mühafizəsinin hüquqi əsasının müəyyən edilməsində Konstitusiyanın 20a maddəsi xüsusi əhəmiyyət daşıyır. Bundan başqa, "Federal təbiəti mühafizə haqqında" Qanunu *("Bundesnaturschutzgesetz")*, "Hava çirklənmələri, səs, vibrasiya və digər oxşar proseslər nəticəsində ətraf mühitə zərərli təsirlərdən

müdafiə haqqında" Qanun *("Gesetz zum Schutz vor schädlichen Umwelteinwirkungen durch Luftverunreinigungen, Geräusche, Erschütterungen und ähnliche Vorgänge")*, "Su resurslarının tənzimləməsi haqqında" Qanun ("*Gesetz zur Ordnung des Wasserhaushalts*"), "Dövri iqtisadiyyatın təşviqi və ekoloji səmərəli tullantıların idarəedilməsinin təmini haqqında" Qanun *("Gesetz zur Förderung der Kreislaufwirtschaft und Sicherung der umweltverträglichen Bewirtschaftung von Abfällen")* və digər qanunvericilik aktları da bu sahədə xüsusi əhəmiyyət daşıyır.

Yuxarıda qeyd olunan qanunvericilik aktları ilə yanaşı, 2019-cu ildə Almaniyada "Federal iqlim müdafiəsi haqqında" Qanun *("Bundes-Klimaschutzgesetz")* qəbul edilmişdir. Almaniya Konstitusiya Məhkəməsinin 2021-ci il tarixli Qərarı ilə həmin qanunun gələcək nəsilləri iqlim dəyişikliklərinin təsirlərindən səmərəsiz müdafiə etməsi səbəbindən Konstitusiyaya zidd olduğu, xüsusilə 2030-cu ildən sonrakı emissiya hədəflərinin səmərəsiz olduğunu müəyyən edilmişdir. Lakin bununla belə, sözügedən qərar bir sıra tədqiqatçılar tərəfindən tənqid edilir [12]. Bu səbəbdən 2021-ci ildə sözügedən qanuna əsaslı dəyişikliklər edilmişdir. Beləliklə qanunun 3-cü maddəsində emissiyaların 1990-cı ilə nisbətən 2030-cu ilədək 65%, 2040-cı ilədək isə 88% azaldılması hədəfi müəyyən edilmişdir.

Həmçinin 2020-ci ildə Almaniyada "Kömür əsaslı enerji istehsalının azaldılması və dayandırılması haqqında" Qanun *("Gesetz zur Reduzierung und zur Beendigung der Kohleverstromung")* qəbul edilmişdir. Qanunun əsas məqsədi kömür enerjisinin həcmini 2022-ci il üzrə 15 Giqavatla məhdudlaşdırmaq, 2038-ci ilədək isə tamamilə 0-a çatdırmaqdan  ibarətdir.

Eyni zamanda Almaniyada bərpa olunan enerji mənbələrinin tənzimlənməsi "Bərpa olunan enerjinin genişləndirilməsi haqqında" Qanunla *("Gesetz für den Ausbau erneuerbarer Energien")* həyata keçirilir. Həmin qanuna 2023-cü ildə əsaslı dəyişikliklər edilmişdir. Qanunun əsas məqsədi 2030-cu ilədək Almaniyada istehsal olunan enerjinin 80%-nin bərpa olunan enerji mənbələrinin təşkil etməsi olmuşdur.

Yuxarıda qeyd olunanların təhlili göstərir ki, Almaniyanın ekoloji qanunvericiliyi üçün son illərdə iqlim tənzimləməsinin sərtləşdirilməsi istiqamətində qanunvericilik təşəbbüslərinin olması xarakterikdir. Eləcə də Konstitusiya Məhkəməsinin yuxarıda qeyd edilən qərarı Almaniyada iqlim tənzimləməsinin həyata keçirilməsinin səciyyəvi cəhətlərinin müəyyən edilməsində mühüm rol oynayır.

**Birləşmiş Krallıq.** Beynəlxalq nüfuz, tarixi köklər və zəngin qanunvericilik təcrübəsi ekoloji tənzimləmə sahəsində da Birləşmiş Krallığın qanunvericiliyinin təhlilinin əhəmiyyətini göstərir. Xüsusilə "Brexit" sonrası dövrdə ölkə qanunvericiliyinin daha suveren xarakter daşıması bu sahədə Birləşmiş Krallıq qanunvericiliyinin təhlilini daha da zəruri edir.

Birləşmiş Krallıqda iqlim tənzimləməsinin əsasları və iqlim hədəfləri 2008-ci il tarixli "İqlim dəyişikliyi Aktı"nda *("Climate Change Act 2008")* öz əksini tapmışdır. Akta 2019-cu ildə edilmiş dəyişikliklərlə 2050-ci ilədək xalis-sıfır *("net-zero")* hədəfi müəyyən edilmişdir. Qanunvericilik aktı həmçinin "karbon büdcələri" *("carbon budgets")* anlayışını qanunvericiliyə daxil etməklə, il ərzində emissiyasına yol verilən istixana qazlarının həcminə də hüquqi tənzimləmə gətirmişdir.

Birləşmiş Krallığın ekoloji qanunvericiliyində 2021-ci il tarixli "Ətraf mühit Aktı" *("Environment Act 2021")* xüsusi əhəmiyyət daşıyır. Qanunvericilik aktı, xüsusilə, "Brexit" sonrası dövrdə Birləşmiş Krallıqda ekoloji tənzimləmənin əsaslarını müəyyən etmək məqsədi daşıyır. Aktda ətraf mühitin mühafizəsinin müxtəlif sahələrində, məsələn, hava keyfiyyəti, su, biomüxtəliflik, resursların səmərəliliyi və tullantıların azaldılmasına dair Birləşmiş Krallığın ekoloji hədəflərinin

müəyyən edilməsi öhdəliyi təsbit edilmiş, eləcə də hökumətin ekoloji təkmilləşdirmə planı hazırlaması öhdəliyi müəyyən edilmişdir. Aktda həmçinin hava keyfiyyəti, su, biomüxtəliflik və tullantılar sahələrində daha təkmil tənzimləmələr öz əksini tapmışdır.

Enerji sektorunda isə Birləşmiş Krallığın 2023-cü il tarixli "Enerji Aktı" *("Energy Act 2023")* mühüm rol oynayır. Xüsusilə ölkənin iqlim hədəflərini nəzərə alaraq, enerji sektorunun karbonsuzlaşdırılması, karbon qiymətqoyma, xüsusilə karbon yığılması və saxlanılması kimi enerji səmərəliliyi və dayanıqlılığı baxımından xüsusi önəmə malikdir.

Qeyd olunanların təhlili göstərir ki, Birləşmiş Krallıqda ekoloji qanunvericiliyin son illərdə təkmilləşdirilməsi üçün xarakterik cəhət *"Brexit" sonrası dövrdə* qanunvericiliyin daha suveren xarakter daşıması, *iqlim hədəflərinin* daha da sərtləşdirilməsi, ekoloji qanunvericiliyin digər sahələrində də daha təkmil tənzimləmənin müəyyən edilməsi və ölkə qanunvericiliyinin ekoloji hədəflərə nail olması üçün qanunvericiliyin daha da təkmilləşdirilməsi olmuşdur.

**Amerika Birləşmiş Ştatları.** Yuxarıda qeyd edildiyi kimi, iqtisadi inkişafın artması eyni zamanda ətraf mühitə təsiri də artırır. Bu baxımdan, dünyanın ən böyük iqtisadiyyatı olan Amerika Birləşmiş Ştatlarının (bundan sonra – ABŞ) ekoloji hüquqi çərçivəsinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

ABŞ-də ekoloji hüquqi tənzimləmə çərçivəsi federal qanunvericilik aktları və ayrı-ayrı ştatların aktları xüsusi rol oynayır. Sözügedən aktlar içərisində federal qurumların qərarlarında ətraf mühitin mühafizəsi amillərinin nəzərə alınmasını təmin edən "Milli ətraf mühit siyasəti" Aktı *("The National Environmental Policy Act")*, atmosfer havasına emissiyaları tənzimləyən "Təmiz hava" Aktı *("Clean Air Act")*, su hövzələrinin çirklənmələrdən qorunmasını tənzimləyən "Təmiz su" Aktı *("Clean Water Act")*, zərərli maddələrin istifadəsi, istehsalı və məhv edilməsini tənzimləyən "Zərərli maddə idarəetməsi" Aktı *("Toxic Substances Control Act")*, enerji effektivliyi, bərpa olunan enerji mənbələri ilə bağlı məsələləri tənzimləyən "Enerji siyasəti" Aktı *("Energy Policy Act")* və digərlərini misal göstərmək olar. Eləcə də müvafiq sahədə Ətraf Mühitin Mühafizəsi Agentliyinin *("Environmental Protection Agency")* fəaliyyəti xüsusilə qeyd edilməlidir.

ABŞ təcrübəsində ekoloji hüquqi çərçivənin təkmilləşdirilməsi üçün Bayden administrasiyasının 2021-ci il seçkilərində qalib gəlməsi, Paris Sazişinə təkrar qoşulma, eləcə də iqlim dəyişiklikləri ilə mübarizə sahəsində bir sıra İcra Əmrləri *("Executive Order")* ilə xarakterizə olunur. Xüsusilə ABŞ prezidentinin 14008 nömrəli "Daxildə və xaricdə iqlim böhranı ilə mübarizə" adlı İcra Əmri *("Tackling the Climate Crisis at Home and Abroad")* 2050-ci ilədək xalis-sıfır emissiya hədəfinin müəyyən edilməsi, 14057 nömrəli "Federal dayanıqlılıq vasitəsilə təmiz enerji və işlərin asanlaşdırılması" adlı İcra Əmri *("Catalyzing Clean Energy Industries and Jobs Through Federal Sustainability")* federal hökumət üçün emissiya hədəfləri, xüsusilə satınalmalar vasitəsilə təmiz enerjiyə keçidin təmin edilməsi üçün xüsusi əhəmiyyət kəsb edir.

Xüsusilə 2022-ci il tarixli "İnflyasiyanın azaldılması" Aktı *("Inflation Reduction Act of 2022")* təmiz enerji və emissiyaların azaldılması sahələrində maliyyə vəsaitinin ayrılması və investisiyaların həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Lakin 2025-ci il Tramp administrasiyasının təkrar hakimiyyətə gəlməsi ilə ABŞ ekoloji siyasətində bir sıra dəyişikliklərin edilməsi, xüsusilə mövcud qanunvericilik aktları çərçivəsində ayrılmış büdcə vəsaitinin azaldılması və digər dəyişikliklərin edilməsi proqnozlaşdırılır [10, s. 47].

**Yaponiya**. Ekoloji tənzimləmə sferasında qabaqcıl qanunvericilik təcrübəsinə malik dövlətlərdən biri kimi Yaponiyanın bu sahədə qanunvericilik təcrübəsi bir çox dövlətlər üçün nümunəvi xarakter daşıyır.

Yaponiyada ekoloji tənzimləmənin hüquqi əsaslarını ətraf mühitin mühafizəsinin ilkin əsaslarını müəyyən edən "İlkin ətraf mühit" Qanunu *("Basic Environment Law")*, layihələrin ətraf mühitə təsirinin qiymətləndirilməsini tənzimləyən "Ətraf mühitə təsirin qiymətləndirilməsi" Qanunu *("Environmental Impact Assessment Law")*, atmosfer havasının çirklənmələrdən mühafizəsini təmin edən "Hava çirklənməsinə nəzarət" Qanunu *("Air Pollution Control Law")*, su hövzələrinin çirkləndirici maddələrdən mühafizəsini təmin edən "Su çirklənməsinə nəzarət" Qanunu *("Water Pollution Control Law")*, tullantıların ətraf mühitə zərər vermədən utilizasiyasını təmin edən "Tullantıların idarəedilməsi və ictimai təmizlik" Qanunu *("Waste Management and Public Cleansing Law")* və digər qanunvericilik aktları təşkil edir. Bunlarla yanaşı, iqlim dəyişikliklərinə qarşı mübarizə çərçivəsində emissiyaların azaldılması ilə bağlı milli hədəfləri müəyyən edən "Qlobal istiləşməyə əks tədbirlər haqqında" Akt *("Global Warming Countermeasures Law")*, adaptasiya planları üçün hüquqi əsası müəyyən edən "İqlim dəyişikliklərinə adaptasiya Aktı" *("Climate Change Adaptation Act")*, yaşıl satınalmalar və karbon qiymətqoyma sahəsində müvafiq qanunvericilik aktları, eləcə də Paris Sazişinin icrası ilə əlaqədar 2050-ci ilədək sıfır emissiya hədəflərinin müəyyən edilməsi sahəsində bir sıra strategiyalar qəbul edilmişdir.

Bundan başqa, Yaponiyada 2021-ci il tarixli "Plastiklər üçün resurs dövriyyəsinin təşviqi" Aktı *("The Act on Promotion of Resource Circulation for Plastics (Act No. 60 of 2021)")* qəbul edilmişdir. Bu Akt plastik tullantıların azaldılması sahəsində xüsusi əhəmiyyət daşımaqla yanaşı, əhalinin bu sahədə savadlılığı baxımından da əhəmiyyətlidir. Belə ki, 2022-ci ildə Yaponiyada keçirilmiş sorğu nəticələrinə əsasən respondentlərin 25.3 faizi həmin Aktın müddəaları barədə məlumatlı olduğu müəyyən edilmişdir [13].

Əlavə olaraq, Yaponiyada 2023-cü ildən karbon dioksidin tutulma saxlanclarının kommersiyalaşdırılmasının asanlaşdırılması məqsədilə müzakirələrə başlanılmış və "Karbon dioksid saxlanc biznesi" Aktı *("Carbon Dioxide Capture and Storage Business Act")* qəbul olunmuşdur. Akt Yaponiyanın 2050-ci ilədək karbon hədəflərinə nail olmaq üçün sözügedən sahənin kommersiyalaşdırılması üçün lisenziya sistemi və zəruri hüquqi çərçivəni təmin edir.

Göründüyü kimi, Yaponiya qanunvericiliyi üçün *istixana qazlarının emissiyaların azaldılması* sahəsində hədəflərin müəyyən edilməsi, həmin hədəflərə nail olmaq üçün zəruri hüquqi çərçivənin müəyyən edilməsi xarakterikdir.

**Nəticə**

Yuxarıda qeyd olunanların təhlili göstərir ki, son illərdə inkişaf etmiş ölkələrin ekoloji qanunvericilikləri üçün müvafiq təkmilləşdirilmələrin aparılması xarakterikdir. Xüsusilə ekoloji vəziyyətin pisləşməsi və elmi ekoloji araşdırmaların gələcəklə bağlı ürəkaçan olmayan nəticələri, mediada ekoloji problemlərin daha çox işıqlandırılması ilə cəmiyyətin ekoloji problemlərin fərqinə varması, xüsusilə Paris Sazişi kimi bir sıra beynəlxalq razılaşmaların icrası dövlətləri ekoloji qanunvericiliklərində adekvat təkmilləşdirmələr aparmağa vadar etmişdir.

Qabaqcıl dövlətlərdə ekoloji qanunvericiliyin təkmilləşdirilməsi işləri xüsusilə iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsində özünü daha çox büruzə verir. Belə ki, xüsusilə Paris Sazişi kimi beynəlxalq öhdəliklərin icrasında irəli gələrək dövlətlər iqlim dəyişiklikləri ilə mübarizə sahəsində istixana qazlarının emissiyalarının azaldılması yoluna getmiş, eləcə də

bu sahədə bir sıra strategiyalar və qanunvericilik aktları qəbul etmişlər. Bu zaman Aİ-də iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsində qəbul edilmiş hüquqi aktlar, Fransada bu sahədə demokratik təşəbbüslərin həyata keçirilməsi, Almaniya Konstitusiya Məhkəməsinin mövcud iqlim Qanununu Konstitusiyaya zidd hesab etməsi ilə bağlı Qərarı, Birləşmiş Krallığın "Brexit" sonrası qanunvericilik aktları, ABŞ-də Bayden administrasiyasının Paris Sazişinə təkrar qoşulması, Yaponiyada bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi addımları xüsusi əhəmiyyət daşıyır. Bu zaman sözügedən dövlətlərin hər biri üçün ümumi xarakterik cəhət ekoloji tənzimləmənin, xüsusilə iqlim dəyişiklikləri ilə mübarizə sahəsində daha da sərtləşdirilməsi ilə səciyyələnir. Sərt tənzimləmənin tətbiqi iqlim dəyişiklikləri ilə mübarizə ilə yanaşı, tullantıların azaldılması, biomüxtəlifliyin qorunması və ekologiya hüququnun digər sahələrində də özünü göstərir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. IPCC, 2023: Summary for Policymakers. In: Climate Change 2023: Synthesis Report. Contribution of Working Groups I, II and III to the Sixth Assessment Report of the Intergovernmental Panel on Climate Change [Core Writing Team, H. Lee and J. Romero (eds.)]. IPCC, Geneva, Switzerland, pp. 1-34, doi: 10.59327/IPCC/AR6-9789291691647.001

2. UN environment progremme. Bridging the Gap Between Science and Policy-making for a Pollution-free Planet. 13 June 2024. https://wedocs.unep.org/bitstream/handle/20.500.11822/45687/OEWG3_fact-sheet.pdf?sequence=1&isAllowed=y

3. United Nations. 2023. The Sustainable Development Goals Report 2023. Special edition. https://unstats.un.org/sdgs/report/2023/The-Sustainable-Development-Goals-Report-2023.pdf

4. IPCC, 2021: Climate Change 2021: The Physical Science Basis. Contribution of Working Group I to the Sixth Assessment Report of the Intergovernmental Panel on Climate Change [Masson-Delmotte, V., P. Zhai, A. Pirani, S.L. Connors, C. Péan, S. Berger, N. Caud, Y. Chen, L. Goldfarb, M.I. Gomis, M. Huang, K. Leitzell, E. Lonnoy, J.B.R. Matthews, T.K. Maycock, T. Waterfield, O. Yelekçi, R. Yu, and B. Zhou (eds.)]. Cambridge University Press, Cambridge, United Kingdom and New York, NY, USA, 2391 pp. doi:10.1017/9781009157896.

5. OECD. (2022). OECD work in support of a sustainable ocean. OECD Publishing, Paris. https://www.oecd.org/content/dam/oecd/en/topics/policy-sub-issues/ocean/2022-OECD-work-in-support-of-a-sustainable-ocean.pdf/_jcr_content/renditions/original./2022-OECD-work-in-support-of-a-sustainable-ocean.pdf

6. Zou, Y. et al. (2020), "Using CESM-RESFire to understand climate-fire-ecosystem interactions and the implications for decadal climate variability", Atmospheric Chemistry and Physics, Vol. 20/2, pp. 995-1020, DOI: https://doi.org/10.5194/acp-20-995-2020.

7. Zhaoguang Liao, Luan Xiao. 2025. Government environmental regulation, media attention, and corporate green innovation. International Review of Economics & Finance, Volume 97. https://doi.org/10.1016/j.iref.2024.103751.

8. Kati Kulovesi, Sebastian Oberthür, Harro van Asselt and Annalisa Savaresi. The European Climate Law: Strengthening EU Procedural Climate Governance?. Journal of Environmental Law, 2024, 36, 23–42 https://doi.org/10.1093/jel/eqad034

9. Schlacke, S., Wentzien, H., Thierjung, E. M., & Köster, M. (2022). Implementing the EU Climate Law via the 'Fit for 55'package. Oxford Open Energy, 1, oiab002. https://doi.org/10.1093/ooenergy/oiab002

10. Fiorino, D. J. (2025). What Does a Second Trump Term Mean for US Environmental Policy?. Policy Quarterly, 21(1), 46-49. https://doi.org/10.26686/pq.v21i1.9725

11. Jousseaume, M. (2022, January 18). The French Climate and Resilience Law. Centre for European Policy Network (cep). https://www.cep.eu/fileadmin/user_upload/cep.eu/Studien/cepInput_Franzoesisches_Klima-_und_Resilienzgesetz/cepInput_The_French_Climate_and_Resilience_Law.pdf

12. Ekardt, F., & Bärenwaldt, M. (2023). The German Climate Verdict, Human Rights, Paris Target, and EU Climate Law. Sustainability, 15(17), 12993. https://doi.org/10.3390/su151712993

13. Statista. Japan: Awareness of the Plastic Resource Circulation Act 2022. Statista. Retrieved May 15, 2025, from https://www.statista.com/statistics/1306033/japan-plastic-resource-circulation-act-awareness/

**Алимусаев Эмин Назим оглу,**
докторант кафедры трудового и экологического права
юридического факультета Бакинского государственного университета

## ОСОБЕННОСТИ СОВЕРШЕНСТВОВАНИЯ ЭКОЛОГИЧЕСКОЙ ПРАВОВОЙ БАЗЫ В РАЗВИТЫХ СТРАНАХ: ВЫЯВЛЕНИЕ ОСНОВНЫХ ТЕНДЕНЦИЙ

### РЕЗЮМЕ

Развитие человечества пропорционально увеличивает воздействие человека на окружающую среду. Особенно индустриализация, урбанизация, технологическое развитие вызывают обострение экологических проблем, поскольку потребляют природные ресурсы, загрязняют природу и выбрасывают парниковые газы. Усиливающееся изменение климата, сокращение природных ресурсов, загрязнение окружающей среды и другие экологические проблемы не только приводят к экономическим потерям, но и ставят под угрозу будущее человечества. Более того, результаты научных исследований свидетельствуют о том, что экологические проблемы будут усугубляться и в будущем. Кроме того, по мере того как СМИ продолжают освещать экологические проблемы, а люди становятся более осведомленными об окружающей среде, общественное мнение формируется для принятия мер по решению экологических проблем. Все это, а также экологические обязательства государств, оправдывает постоянное развитие экологической правовой базы. Особенно это заметно в развитых странах. Для того чтобы выявить основные тенденции, необходимо изучить правовую базу Европейского союза, стран-членов, таких как Франция и Германия, Великобритания, Соединенные Штаты Америки и Япония. В данной статье исследуются правовые тенденции в экологическом законодательстве указанных стран на основе анализа последних обновлений законодательства.

**Alimusayev Emin Nazim,**
Doctoral Student, Department of Labor and Environmental Law,
Faculty of Law, Baku State University

## CHARACTERISTICS OF THE ENHANCEMENT OF ENVIRONMENTAL LEGAL FRAMEWORK IN DEVELOPED COUNTRIES: IDENTIFYING KEY TENDENCIES

### SUMMARY

The development of humanity proportionally increases the human impact on the environment. Especially industrialization, urbanization, technological development cause intensification of environmental problems by consuming natural resources, polluting nature and emitting greenhouse gasses. Intensifying climate change, declining natural resources, pollution and other environmental problems, not only cause financial losses, but also jeopardize the future of mankind. Moreover, the results of the various scientific researches also forecast that the environmental problems will keep worsening in the future. Besides that, as the media keep highlighting the environmental problems and people become more aware about the environment, public opinion is shaped to take a measure to address environmental issues. All these and environmental obligations of states justify the constant development of environmental legal framework. Especially in developed countries, it is more evident. In order to identify key trends, the paper studies the legal framework of the European Union, its member states such as France and Germany, United Kingdom, United States of America and Japan is essential. This article studies the legal tendencies in environmental legislative frameworks of mentioned countries by analyzing latest legislative updates.

**Redaksiyaya daxilolma tarixi: 15.05.2025**
**Təkrar işlənməyə göndərilmə tarixi: 23.05.2025**
**Çapa qəbul olunma tarixi: 24.05.2025**